**UOT: 334. 012:62**

***Aytən Faris qızı ƏBDÜRRƏHMANOVA***
***AMEA İqtisadiyyat İnstitutunun dissertantı***

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNDƏ İNNOVASİYA RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Xülasə***

**Tədqiqatın məqsədi** Azərbaycanın kiçik və orta sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsinin mövcud mexanizminin təkmilləşdirilməsidir.

**Tədqiqatın metodologiyası** – Tədqiqat sistemli yanaşma, ümumiləşdirmə, anket sorğusu və müsahibə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Azərbaycanda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışı, aşağı faizli kredit almaq imkanı qənaətbəxş deyil, bunlar da həmin subyektlərin yüksək iqtisadi risklə üzləşməsinə şərait yaradır.

KOS subyektlərinin innovasiya aktivliyinə və xarici bazarlara çıxışına mənfi təsir göstərir. Bu nöqsanların aradan qaldırılması üçün risklərin idarə edilməsi üzrə mövcud mexanizmin təkmilləşdirilməsinə zəruri ehtiyac duyulur.

**Tədqiqatın nəticələri** – ölkəmizin emal sənayesində kiçik və orta sahibkarlıq subyektlərinin risk amillərindən asılılığını azaltmaq və onların davamlı inkişafını təmin etmək üçün metodiki və əməli xarakterli tövsiyələr irəli sürülmüşdür.

**Təqiqatın orijinallığı və elmi yeniliyi -** kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya prosesində yaranan risklər təsnifləşdirilmiş, emal sənayesində innovasiya sahibkarlığında risklərin idarə edilməsi mexanizminin prinsipal sxemi işlənilmiş, innovasiya risklərini formalaşdıran şərait və onların idarə edilməsi üzrə mütərəqqi metodlardan istifadənin zəruriliyi elmi cəhətdən əsaslandırılmış, sahibkarlıq subyektlərində risklərin azaldılması və rasional idarə edilməsinin təkmil mexanizmləri müəyyən edilmişdir.

***Açar sözlər: kiçik və orta sahibkarlıq subyektləri, emal sənayesi, innovasiya riskləri, mexanizm, metodlar.***

## *Giriş*

Qloballaşan dünyada hər bir ölkənin iqtisadiyyatının dayanıqlığı kiçik və orta biznesin (KOB) inkişaf səviyyəsi ilə xarakterizə edilir. Avropa İttifaqına daxil olan ölkələrdə fəaliyyət göstərən müəssisələrin 99%-ni KOB təşkil edir [5]. Azərbaycanda sahibkarlıq subyektlərinin 89%-ni, o cümlədən sənayedə - 74%-ni, emal sənayesində 81,2%-ni mikro, kiçik və orta müəssisələr təşkil edir. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinə istinadən demək olar ki, inkişaf etməkdə olan ölkələrdə orta statusa malik sahibkarlıq subyektləri məşğulluğun əsas təminatçısı qismində çıxış edir və həmin subyektlərdə orta hesabla 230 nəfər çalışır [1]. Azərbaycanda həmin göstərici bütün iqtisadi fəaliyyət sahələri üzrə 76 nəfər, o cümlədən: emal sənayesində 99 nəfər təşkil edir, sahədəki kiçik müəssisələrdə orta hesabla 19 nəfər çalışır [4; s. 15; 27].

Tərəfimizdən aprılan tədqiqat göstərdi ki, həmin sahibkarlıq subyektləri üzrə risk amili yüksəkdir, bu da onların maliyyə resurslarına çıxış imkanlarını məhdudlaşdırır. Etiraf etmək lazımdır ki, hazirda Azərbaycanda kredit faizi çox yüksəkdir və kredit şərti də ağırdır. Həmin kreditlər ən yaxşı halda 5 illiyə verilir, aylıq ödənişlər isə yüksək faizə görə böyük məbləğlərdə ifadə olunur. Bunlar isə nəicə etibarı ilə kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin innovasiya aktivliyinə və xarici bazarlara çıxışına mənfi təsir göstərir. Son illər ölkənin sahibkarlıq subyektlərinin rəhbər işçiləri və mütəxəssisləri arasında aparılan sosioloji tədqiqatların nəticələrində rəyi soruşulanların 27,2%-i innovasiyaların tətbiq edilməsinə mane olan amil kimi maliyyə çatışmazlığını,13,8%-i isə - yüksək iqtisadi risklə üzləşdiklərini qeyd etmişlər. Həmin və digər iqtisadi-istehsal amillərinin mənfi

təsiri nəticəsində təkcə 2015-2019-cu illərdə Azərbaycanda 1959-kiçik, 410-orta statusa malik, adətən innovasiyaları daha çox tətbiq etməyə imkanı olan xarici və müştərək müəssisələr öz fəaliyyətlərinə xitam vermişlər [4; s. 18].

Yuxarıda şərh edilən həmin real faktlar ölkənin emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsi üzrə mövcud mexanizmin təkmilləşdirilməsinin zəruriliyini şərtləşdirmişdir.

**İnnovasiya prosesində yaranan risklərin təsnifatı.** Riskin idarə edilməsinə sahibkarlıq subyektindən kənarda baxmaq düzgün deyildir, çünki o, bilavasitə subyektin (müəssisənin) fəaliyyəti dövründə yaranır və birbaşa innovasiya fəaliyyəti üzrə qarşıya qoyulan məqsədə bu və ya digər formada təsir göstərir. Digər tərəfdən, riskin idarə edilməsi (risk-menecment kontekstində) – müəssisə rəhbərinin, menecerlərin və digər mütəxəssislərin birgə həyata keçirdikləri prosesdir. Həmin proses müəssisənin bütün fəaliyyət sferasını əhatə edərək müvafiq strategiyanın işlənilməsindən başlanır. Kiçik və orta statuslu sahibkarlıq subyektlərində riskin idarə edilməsi maksimum səmərə əldə etmək məqsədini özündə ehtiva edir. İnnovasiya sahibkarlığının təşkili prosesində yarana bilən risklərin təşnifatı tərəfimizdən işlənilən 1 saylı şəkildə əks etdirilmişdir.

Emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərində innovasiya risklərinin daimi mövcudluğu, daha doğrusu onu sərtləşdirən amillər, alt sahələrin fərqli və spesifik xüsusiyyətləri, onların bir-biri ilə sıx kooperasiya əlaqəsində olması (bir-birindən əksər hallarda asılılığı) ilə izah edilir. Ölkə iqtisadiyyatının mövcud strukturu da yüksək risk mühitinin saxlanılmasına şərait yaradır.

Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neftqazçıxarma sənayesi ölkədə qeyri-neft sektorunun inkişafının təminatçısı kimi çıxış edir.

Neft və qaz hasilatının artması (ən yaxşı halda stabil saxlanılması), onların milli neft və qaz müəssisələrində dərin emalı kimya, neft-kimyası və əczaçılıq sənaye sahələrinin dinamik və innovativ inkişafına təminat yaradır. Həmin alt sahələrdə geniş çeşiddə (təxminən 200 adda) istehsal edilən məhsullar iqtisadiyyatın digər sahələrinin xammal təchizatına təminat yaradır. Bu sahədə hər hansı gerilik digər iqtisadi fəaliyyət sahəsinin inkişafına mənfi təsir göstərərək yüksək risk şəraiti yaradır Digər tərəfdən, kimya və neft-kimya müəssisələrində istehsal edilən xalq istehlakı mallarının həcminin, çeşidinin və keyfiyyətinin azalması istehlakçıların təminat səviyyəsinə mənfi təsir göstərməklə daxili bazarda qiymətlərin artmasına, bir çox hallarda isə riskli şəraitin yaradılmasına rəvac verir. Onu şərtləşdirən başlıca səbəb isə - marketinq tədqiqatlarının düzgün aparılmamasıdır. Nəticədə, sahibkar firma bazarda rəqiblərin imkanlarını düzgün qiymətləndirə bilmir, məhsul tam həcmdə satılmır və müqavilə öhdəlikləri pozulur.

**Risklərin idarə edilməsi mexanizmi**

İnnovasiya sahibkarlığında yaranan risklərin idarə edilməsi mexanizmi özündə aşağıdakıları cəmləşdirir:

- riskə təsir edən daxili və xarici amillər;
- riskin idarə edilməsi prosesinin əsas mərhələləri;
- riskin səmərəli idarə edilməsinin nəticələri.

Adı çəkilən mexanizmin elementlərinin üzvi tərkib hissəsi (əhatə dairəsi) tərəfimizdən tərtib edilən 2 saylı şəkildə əks etdirilmişdir.

Şəkildən göündüyü kimi sahibkarlıq subyektlərində innovasiya fəaliyyəti çoxsaylı daxili və xarici amillərin təsiri nəticəsində risklə müşahidə edilir və onun təsir dairəsini təsərrüfat fəaliyyətinin nəticələrində əvvəlcədən dəqiq müəyyən emək mümkün olmur.

Bütünlükdə, sahibkarlıq subyektlərində innovasiya riskləri aktiv və passiv şəkildə özünü büruzə verir. Aktiv risklərə innovasiya layihəsinin icrası ilə əlaqədar qərar qəbul edən subyekt aid edilir. Passiv subyekt isə - xarici təsirin nəticəsində innovasiya qərarlarının qəbul edilməsinə qəsdən cəlb edilən innovasiya prosesidir. Deməli, müəssisədə yaranan riski inkar etmək qeyri-mümkündür, əks təqdirdə o, elmi-texniki tərəqqini ləngidən alətə çevrilir. İnnovasiya riski – ehtimal olunan itkidir və sahibkar firmalarda yeni məhsulun istehsalına qoyulan vəsaitin gözlənilən nəticə vermədiyi şəraitdə yaranır. Elmi-texniki tərəqqi sahəsində yaranan risklər özünün aşağıdakı növləri ilə seçilir:

**İnnovasiya sahibkarlığının təşkilində yaranan r i s k l ə r**

1. İnnovasiya layihəsinin düzgün seçilməsi ilə yanaşı risklər
2. İnnovasiya layihəsinin maliyyələşdirilməsi təmin edilmədikdə yaranan risklər
3. Sahibkar firmanın texnoloji proseslərinin xüsusiyyətləri ilə əlaqədar olan istehsalat riskləri
4. İnnovasiya layihəsinin icrası üçün zəruri resurslarla təchiz edilməməsi səbəbindən yaranan risk
5. İnnovasiya layihəsinin nəticələrinin satışı zamanı yaranan marketinq riskləri
6. Təsərrüfat müqavilələrinin (sazişlərin) vaxtında icra edilməməsi səbəbindən yaranan risklər
7. Əvvəlcədən nəzərdə tutula bilməyən xərclərin yaranması, gəlirin azalması ilə yaranan risklər
8. Rəqabət mübarizəsinin güclənməsi ilə əlaqədar yaranan risklər
9. Kadr təminatının qeyri-qənaətbəxş səviyyədə təşkili ilə yaranan risklər
10. İnnovasiya layihələri üzrə mülkiyyət hüququnun təmin edilməsi ilə əlaqədar yaranan risklər
11. İnformasiya-kommunikasiya texnologiyalarından qeyri-qənaətbəxş istifadə üzrə yaranan risklər
12. Xarici amillərin təsiri nəticəsində yarana bilən digər risklər (əvvəlcədən planlaşdırılması mümkün olmayan)

***Şəkil 1. İnnovasiya sahibkarlığının təşkili prosesində yarana bilən risklərin təsnifatı (müəllif tərəfindən işlənilmişdir)***




**Şəkil 2. Emal sənayesində innonvasiya sahibkarlığında riskin idarə edilməsi mexanizminin prinsipal sxemi (müəllif tərəfindən işlənilmişdir).**

- Elmi tədqiqatların tətbiqindən ehtimal olunan mənfi nəticələr;
- Elmi-texniki xarakterli hər hansı tədbirin həyata keçirilməsi nəticəsində mənfi sosial təsirlərin başlanılmasının mümkünlüyü;
- Elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq edən iştirakçılar üçün mənfi iqtisadi nəticələrin baş verməsi. Həmin növlərin təsir dərəcəsini azaltmaq üçün Qərb ölkələrində mövcud olan vençur firmalarının iş təcrübəsindən istifadə etmək məqsədəuyğun olardı.

**İnnovasiya risklərini formalaşdıran şərait və onların idarə edilməsi metodları**

Azərbaycan emal müəssisələrində apardığımız anket sorğusunun və müsahibələrin nəticələri göstərdi ki, innovasiya riskləri aşağıdakı şəraitlərdə baş verir:

- mövcud metodlardan fərqli daha ucuz yanaşmadan istifadə etməklə məhsul istehsal etmək;
- köhnə avadanlıqdan istifadə etməklə yeni məhsulun istehsalı;
- müasir texnika və texnologiyanın köməyi ilə yeni məhsulun istehsalı.

Sahibkar firmaların iş təcrübəsində hər üç halda öz səviyyələri ilə risk qaçılmaz olmaqla, özlərinin fərqli yanaşma əsasında idarə edilməsini şərtləşdirir. Bu isə, öz növbəsində daha təsirli metodlardan istifadənin zəruriliyini ön plana çəkir. Tədqiq edilən mövzuya dair ədəbiyyatların öyrənilib ümumiləşdirilməsi və 50-dən çox sahibkar firmalarda apardığım sosioloji tədqiqatların nəticəsinə əsaslanaraq təsərrüfat risklərinin idarə edilməsi metodlarının aşağıdakı tiplərini təsnifləşdirmək mümkün olmuşdur: riskdən kənarlaşma; riskin lokallaşdırılması; riskin bölüşdürülməsi; mümkün ola bilən itkilərin sığortalanması; riskin identifikasiya edilməsi; riskin müvazinətləşdirilməsi.

Bizim fikrimizcə, ölkənin emal sənayesində həmin metodların həyata keçirilməsi ilk növbədə müflisləşərək öz fəaliyyətinə xitam verən (hətta zərərlə işləyən) mikro, kiçik, orta, xarici və müştərək sahibkarlıq subyektlərinin sayının azalmasına imkan vermiş olacaqdır. Bütün hallarda hər bir sahibkar risk sahəsində müvafiq siyasəti formalaşdırmalıdır.

Risk siyasətinin əsas istiqamətləri kimi aşağıdakıların çıxış etməsi məqsədəuyğundur: riskdən kənarlaşmaq siyasəti; riski qəbul etmək (bölüşdürmək) siyasəti; risk səviyyəsinin aşağı salınması siyasəti.

Emal sənayesində innovasiya sahibkarlığının inkişafına mane olan çoxsaylı amillərin tərkibinin təhlili və qiymətləndirilməsi və ondan çıxan nəticələr bizə həmin siyasətin üçüncü qrupuna, yəni risk səviyyəsinin aşağı salınmasına daha çox önəm verməyin vacibliyini ön plana çəkir. Bu siyasətin üzvi tərtib hissəsini isə sığortalanma, şaxələndirmə (diversifikasiya) və limitlərdən istifadə metodları təşkil edir . Birinci metod əslində riski azaltmır, lakin riskin müvazinətləşməsinə imkan verir. Digər iki metod isə mümkün olan itkilərin həddini (həcmini) azaldır. Tədqiqatın nəticəsi olaraq sahibkarlıq subyektlərində risklərin azaldılmasının aşağıdakı beş yoluna daha çox diqqət yetirilməsi məqbul sayılır:

- marketinq tədqiqatlarının təkmilləşdirilməsi;
- təsərrüfat tərəfdaşları ilə müqavilə (saziş) münasibətlərinin təkmilləşdirilməsi;
- müəssisənin mövcud resurslarının mühəndis-texniki baxımından qorunması işinin təşkili;
- informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə;
- heyətlə işin təkmilləşdirilməsi və onların əməyinin düzgün motivləşdirilməsi (istehsalın son nəticəsi, məhsulun keyfiyyəti, resurslardan səmərəli istifadə, itkilərin və ətraf mühitə dəyən zərərin azaldılması ilə əməyin ödənişi arasında birbaşa üzvi əlaqənin yaradılması)

KOS-da innovasiya risklərinin idarə edilməsi mexanizminin tərkib hissəsi kimi subyektlərin qlobal və yaxud lokal dəyər zəncirinə qoşulması çıxış edə bilər. Azərbaycanın emal sənayesindəki Transmilli Şirkətlər istehsal etdikləri məhsulların ayrı-ayrı komponentlərinin təchizatçı kimi fəaliyyət göstərməsinə dəstək məqsədilə ölkə ərazisində yerləşən mikro, kiçik və orta müəssisələrə sifariş verməklə onların dəyər zəncirində daha aşağı risklə yüksək əlavə dəyər yaradan subyektlərin iştirakçısına çevirə bilərlər.

**Risklərin idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi**

İnnovasiya risklərinin idarə edilməsinin mexanizmi kontekstində xarici ölkələrin iş təcrübəsindən istifadə etməklə ölkə Prezidentinin müvafiq Fərmanına uyğun [2] mikro, kiçik və orta sahib-

karlıq subyektlərinin maliyyələşdirilməsi ilə əlaqədar **zəmanət fondunun, girovsuz maliyyələşdirmə mexanizmlərinin** yaradılması nəticə etibarı ilə riskin tənzimlənməsinə imkan verə bilər.

Emal sənayesi müəssisələrinin innovasiya potensialının artırılması kontekstində innovasiya fəaliyyətinin diversifikasiyası yolu ilə (tədqiqatçıların səylərinin və investisiyaların müxtəlif innovasiya layihələrinin işlənilməsi və həyata keçirilməsi məqsədilə artırılması) innovasiya risklərinin azaldılması bu idarəetmə mexanizminin təkmilləşməsinə dəstək vermiş olacaqdır.

Bunlarla yanaşı, İKT-dən istifadə risklərin azaldılmasında mühüm mövqeyə sahibdir. Elə buna görə də İKT innovativ inkişafın əsas elementi olmaqla risk şəraitində sahibkarlıq strukturlarının səmərəli işinə imkan yaradır.

İKT risk sahəsində qəbul edilən idarəetmə qərarlarının spesifik sistemi olmaqla aşağıdakı elementləri özündə cəmləşdirir: informasiya sorğu sistemi; süni intellekt elementi sistemi. Həmin sistemlər risk üzrə ilkin informasiyaların toplanması, emalı və bölüşdürülməsində, eləcə də riskin neytrallaşdırılması üçün çoxvariantlı qərarların qəbul edilməsində istifadə edilir. Təəssüflə qeyd etmək olar ki, mikro və kiçik sahibkarlıq subyektlərində İKT yalnız işlək kompüter vasitəsi kimi çıxış edir.

Bizim fikrimizcə, İKT mikro və kiçik müəssisələrdə iqtisadi və texnoloji risklərin tənzimlənməsində baza aləti kimi çıxış etməlidir.

### *Nəticə və təkliflər*

Riskin idarə edilməsinin təşkilati-iqtisadi mexanizminin işlək mərhələsində innovasiya proseslərində innovasiya risklərinin diaqnostikasının aparılması nəticə etibarı ilə risklərin keyfiyyətli ekspertiza əsasında qiymətləndirilməsinə imkan vermiş olacaqdır. İnnovasiya prosesində riskin əhəmiyyətini müəyyən etmək üçün məqsədli, elmi-texniki, istehsal, marketinq, maliyyə, kommersiya, layihələrin sosial-iqtisadi əhəmiyyəti və digər meyarlardan istifadə olunması bütünlükdə sahibkar firmanın innovasiya fəaliyyətini müxtəlif aspektlərdən tədqiq etməyə və onun nəticəsində ehtiyat imkanlarını aşkara çıxararaq onlardan istifadə yollarını müəyyən etməyə imkan vermiş olacaqdır.

Azərbaycanda "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"-nin [3] yaradılması emal sənayesində innovasiya sahibkarlığının istehsal risklərinin əsaslı şəkildə aşağı salınmasına münbit şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 96 s.
2. "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli Fərmanı, Bakı, "Xalq qəzeti", 29 dekabr 2017-ci il.
3. "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 06 yanvar 2021-ci il tarixli Fərmanı, "Xalq qəzeti". 07 yanvar 2021-ci il.
4. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, "DSK", 2019, 272 s., 2020, 238 s.
5. https://qlobus.credinform.ru/ru-RU/bloq/Risk_v_predprinimatelskgi_deiatelnosti_44348


***Айтан Фарис кызы Абдуррахманова***
***диссертант Института Экономики НАНА***

## Совершенствование механизма управления инновационными рисками на малых и средних предпринимательских субъектах

### *Резюме*

**Цель исследования.** Совершенствование действующего механизма управления инновационными рисками на малых и средних предпринимательских субъектах Азербайджана.

**Методология исследования** В процессе исследования были использованы – системный подход, обобщение, анкетный опрос, наблюдение.

**Практическая ценность исследования** На действующих в Азербайджане малых и средних предпринимательских субъектах вход на финансовые ресурсы и получение льготных кредитов находятся в неудовлетворительном состоянии, что способствует образованию высокого экономического риска, что отрицательно влияет на инновационную активность и выход на внешний рынок указанных субъектов. Для устранения этих недостатков необходимо совершенствовать действующий механизм управления рисками.

**Результаты исследования.** Для снижения степени риска в деятельности малых и средних предпринимательских субъектов в обрабатывающей промышленности страны и обеспечения их устойчивого развития разработаны методические и практические рекомендации.

**Научная новизна и оригинальность исследования.** Систематизирована перечень рисков в инновационном процессе малых и средних предпринимательских субъектов, разработана принципиальная схема механизма управления рисками инновационного предпринимательства в обрабатывающей промышленности, научно обоснована целесообразность использования прогрессивных методов при формировании рисками, предложен совершенствованный механизм рационального управления и снижение рисков на предпринимательских субъектах.

***Ключевые слова: малые и средние предпринимательские субъекты, инновационные риски, обрабатывающая промышленность, механизмы, методы.***

***Ayten Faris Abdurrahmanova***
***dissertation of the Institute of Economics of ANAS***

**Improving the mechanism of innovation risk management in small and medium enterprises**

***Summary***

**The purpose of the study.** Improving the existing mechanism for managing innovation risks in small and medium enterprises in Azerbaijan.

**Research methodology** - The research systematic approach used generalization, questionnaire and interview methods.

**Importance of research application** - Access to financial resources of small and medium enterprises operating in Azerbaijan, access to low-interest loans is unsatisfactory, which creates conditions for these entities to face high economic risk.

It has a negative impact on SMEs' innovation activity and access to foreign markets. To address these shortcomings, there is an urgent need to improve the existing risk management mechanism.

**The results of the study.** Methodological and practical recommendations have been put forward to reduce the dependence of small and medium-sized enterprises in the processing industry of our country on risk factors and ensure their sustainable development.

**Originality and scientific novelty of the research** - Risks arising in the process of innovation of small and medium enterprises are classified, the basic scheme of the risk management mechanism in the innovative industry in the processing industry is developed, the conditions forming innovation risks and the need to use advanced methods of their management are scientifically substantiated, risk reduction in business entities

***Key words: small and medium business entities, processing industry, innovation risks, mechanism, methods.***